

Rusiya Dövlət Dumasının etika komissiyası Rusiya Liberal Demokrat Partiyasının (LDPR) lideri Vladimir Jirinovskiy qeyri-səhih parlament ritorikasından istifadə etməyi qadağan edib.

Komissiya bununla siyasətçinin “Poedinok” televiziya proqramında Şimal Qafqaz haqqında dediklərinə reaksiya verib. Daha öncə Jirinovski Dumanın plenar iclasında bildirmişdi ki, onu düzgün başa düşməyiblər və həmin sözdərə görə üzr istəyir.

Məşhur bəyanatında Jirinovski bildirmişdi ki, Şimali Qafqazı tikanlı məftillə təcrid etmək və bölgə qadınlarına iki uşaqdan artıq doğmağa qadağa qoymaq lazımdır.